

■ Afət İsax

# Bir damla göz yaşı...

Kim istər ki, gülmək varkən ağlamağı?

Sevinərkən belə gözlərinin yaşardığı zaman sevincin yarım qalmasın deyə "lənət şeytana" söyləyib silərsən göz yaşını...Yanaqların göz yaşı görməmiş kimi sevinc göz yaşlarının belə yanağına düşməsindən qorxar olarsan... Ömründə heç, həm də heç istəməzsən ağlamağı. İstəməzsən yanan bağrının başını isti göz yaşlarınla soyudasan.

Bəzən isə əksinə... Hər kəsdən uzaq, heç kimsənin bilmədiyi bir küncə qısılıb, anasını itirmiş bir körpənin hıçqırıqlarıyla ağlamaq keçər incidilmiş, sındırılmış könlündən. Kimsə parçalanmış qəlbinin qəlpələrini bir yerə toplamağa çalışan birinin - sənin göz yaşını görüb acizliyini anlamasın deyə...

Bəzən də heç ətrafdakıların nə düşündüyünü düşünmədən hönkürtüylə ağlamaq keçər içindən. Səbəbin olmaz, ağlaya bilməzsən. An olar heç səbəb olmadan ağlayarsan... Əslində bir səbəbin kölgəsində içindəki min səbəbi ağlamaq olar səninki. Bunu yalnızca sən bilərsən. Sən ağlayarsan... Görənlər üçün göz yaşlarının bir səbəbi olar. Özlüyündə bildiyin bu səbəbi hər kəs bir səbəb olaraq görər və beləcə səni ağladan min səbəbdən xəbərsiz olar.

Bəzən ağlamaq istədiyin min səbəbin ovuntusu olaraq bir damla göz yaşı düşər yanağına. Bir damla göz yaşı. Səni ovudar o göz yaşı. Zamanı, məkanı bəlli olmaz bəzən.



Bəzən ürəyindən gələn bir sevincin qulaqlar cingildədən qəhqəhəsiylə.

Bəzən ürəyinə düşən bir od yerinin heç sönməyəcək sızıltısıyla.

Bəzən çiyinlərinə götürdüyün bir yükün ağırlığından cisminin deyil hətta ruhunun da halsız düşdüyü o yorğunluqla.

Bəzən heç özün belə hiss etmədən bir ah çəkməklə sıldırımlı qayalardan qopan bir parça kimi gözlərindən qopub yuvarlanar üzü yanaqlarına doğru bir damla göz yaşı. Min səbəbə bir əlac!

Silməyə əlin gəlməz,qaldıqca da köz yeri kimi göynədər səni həzin-həzin. Bu ağlamağa bənzəməz hər zaman. Belə olar həmişə. Gözlərindən o bir damla göz yaşı qoparkən ruhun, fikrin, duyğuların sənə qarşı bir üsyan qoparar. Özünü güclü bildiyin öz meydanında yalnız qalarsan.

Sığınmaq istərsən ruhuna. Oysa, bir damla göz yaşında tərk etdim səni - deyər.

İnanmaq istərsən xəyallarına, bir damla göz yaşında yalan oldum - söyləyər.

Var olmaq istərsən duyğularınla, bir damla göz yaşında boğdun məni, yox oldum - pıçıldayar.

Bax o zaman min səbəbə can verən bir damla göz yaşının anlayarsan hökmünü.

Anlayarsan özünün acizliyini.

Düşünməzsən heç nəyi.

Qorxmazsan yanaqlarına göz yaşının düşməyindən, gah için-için, gah da hönkür-hönkür ağlayarsan sadəcə.

Ağlayarsan... Min səbəbə bir damla göz yaşın olmasın deyə!